**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№361/3** **14 dekabr 2023-cü il**

**“Audit. Qanunvericilik və normativ sənədlər" toplusunun XI cildi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 8.1.2-ci “Audit. Qanunvericilik və normativ sənədlər” toplusunun XI cildinin hazırlanması” bəndinə əsasən Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən hazırlanmış “Audit. Qanunvericilik və normativ sənədlər” toplusunun XI cildinin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Audit. Qanunvericilik və normativ sənədlər” toplusunun XI cildi Şurada müzakirə zamanı edilən təkliflər nəzərə alınmaqla bəyənilsin və nəşr olunması məqsədəmüvafiq hesab edilsin (əlavə olunur).
2. Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, cari ilin 01 fevral - 31 dekabr tarixləri arasında auditə dair qəbul edilmiş normativ hüquqi sənədləri, Palatanın Şurası tərəfindən təsdiq edilmiş və bəyənilmiş metodik göstəriş və təlimatları “Audit. Qanunvericilik və normativ sənədlər” toplusunun XI cildinə daxil etməklə nəşr edilməsi üçün təqdim etsin.
3. Maliyyə və texniki təminat idarəsinə (Q.Əhmədov, N.İsmayılov) tapşıprılsın ki, nəşr üçün təqdim edildikdən sonra bir ay müddətində “Audit. Qanunvericilik və normativ sənədlər” toplusunun XI cildinin 450 (dörd yüz əlli) nüsxədə nəşr olunması təmin edilsin.
4. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki, nəşr edildikdən sonra bir ay müddətində “Audit. Qanunvericilik və normativ sənədlər” toplusunun XI cildinin xidməti məqsədlərlə istifadə olunması, auditin təşkili, təbliği və təşviqi məqsədilə aidiyyəti qurumlara, Palatanın əməkdaşlarına və üzvlərinə, Palatanın Şurası yanında fəaliyyət göstərən komitələrə və komissiyaya siyahı üzrə çatdırılması təmin edilsin.
5. “Audit. Qanunvericilik və normativ sənədlər” toplusunun XI cildini tərtib etdiyinə görə Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova təşəkkür elan edilsin.
6. Bu qərarın mətni Palatanın internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**